**Rahim Telman Sadiqbəyli**

# STOCKHOLM ŞƏBƏKƏSİ

qanun nəşriyyatı

# *Ön söz*

Rahim Sadıqbəylinin "STOCKHOLM ŞƏBƏKƏSİ" adlı bu əsəri müasir dövr Azərbaycan cəmiyyəti üçün nisbətən yeni, amma çox xarakterik fenomen olan Qərbi Avropa ölkələrinə MÜHACİRƏT haqqında bir romandır. Kriminal roman janrında nəql etdiyi bu əsəri müəllif, əslində, İsveçdə, eləcə də digər Avropa ölkələrində müşahidə etmiş olduğu həyat hekayələri üzərində qurmuşdur.

Əsər, əsasən, müəllifin yaradıcı təxəyyülünün məhsulu olsa da, sanki reallığı əks etdirir. Əsərin süjeti İsveçin hüquq-mühafizə orqanlarının Azərbaycandakı həmkarları ilə bərabər beynəlxalq narkotik maddə şəbəkəsini çökdürməsindən ibarət olduğu halda, yazar bu əsərdə fərqli məzhəblərə, dinlərə və millətlərə tolerantlığı ilə məşhur, dünyanın ən demokratik və inkişaf etmiş ölkələrindən olan İsveç Krallığında məskunlaşmış azərbaycanlıların portretini yaratmaqla və onların bu ölkədə sürdüyü yaşam tərzini təsvir etməklə, əslində, bu ölkənin timsalında yurddaşlarımızın hər hansı bir xarici ölkədə uyğunlaşma qabiliyyətindən, dünya vətəndaşı ola bilmək hazırlığından, inteqrasiya qabiliyyətindən, Azərbaycanın imajına necə təsir edə biləcəklərindən bəhs etmək istəmişdir.

Zənnimcə, kinoroman bu gün Azərbaycan mediasında ən çox sözü keçən, tarixi və siyasi gerçəkliklərimizi dünya ictimaiyyətinə çatdırmaqda böyük rolu olan, həm dövlətimizin, həm toplumun ümid yeri olan DİASPORAMIZI işıqlandıran ilk, yeganə, canlı, hərtərəfli və dili təbii əsərdir.

## *Müəllifdən*

Bu kinoromanı ərsəyə gətirmək üçün məni ilhamlandıraraq hərəkətə keçirən – günəşli diyarımdan qarlı Skandinav ölkəsinə köçdükdən bəri yaşadıqlarım və şahid olduqlarım idi. Beləliklə, əsərdəki personajlardan çoxunun reallıqda prototipi mövcuddur və əksəriyyəti ya isveçli, ya da azərbaycanlıdır. Əslində, bu iki ölkənin xalqları bir-birini yaxından tanımasa da, "İsveç" kəlməsi azərbaycanlılarda müəyyən təsəvvürlər canlandırır – birinin ağlına ya "IKEA" mebeli, ya "Volvo" avtomobili, ya "Absolyut" arağı, ya da "H&M" gələ bilər, digəri "ABBA" qrupunu və ya "Avroviziya" müsabiqəsi üçün Azərbaycanın ən çox isveçli müəlliflərdən mahnı aldığı faktını xatırlaya bilər; çoxumuza da məlumdur ki, 19-cu əsrin sonlarında Bakıda neft hasilatını sənayeləşdirməklə Azərbaycanın dünyada "neft ölkəsi" kimi tanınmasına isveçli Nobel qardaşları rəvac verib. İsveçin özünün isə dünyada yanacaq sənayesi məhsullarından tamamən imtina edən ilk ölkə olmağa çalışdığını eşidənlər də, bəlkə, var. Onu da bilirəm ki, oxucuların içində İsveçi "kranlarından süd axan, hər şeyin, demək olar ki, havayı, pulsuz olduğu, emiqrantlar üçün əsl cənnət və çox gözəl imkanları olan ölkə" hesab edənlər də var. Romanın süjet xəttini izləyəcək oxucuma

İsveçə içdən və buradakı Azərbaycan icmasına kənardan mənim gözümlə də baxmaq fürsəti yaratmağa çalışmışam. Bu xəyali səyahətə çıxmamışdan əvvəl ümumi informasiyaya da göz ataq. Skandinaviya yarımadasında yerləşən İsveçin Norveç və Finlandiya ilə həm quru, həm su sərhədləri, Almaniya və Danimarkayla isə yalnız su sərhədləri mövcuddur. İndi əhalisi Azərbaycanınkı kimi yavaş-yavaş on milyonu ötsə də, ərazisi bizim dövlətinkindən beş dəfə böyükdür. 1905-ci ildən bəri sərhədləri dəyişməmiş bu şimal dövləti sahəsinə görə Avropanın beşincisidir. Məsələn, 84 milyon əhalisi olan Almaniyanın ərazisi İsveçinkindən daha azdır. Bir sözlə, bu Skandinaviya ölkəsində əhali heç bir sıxlıq çəkmir. Covid-19 pandemiyası zamanı dünyanın hər tərəfində tətbiq olunan məhdudlaşdırıcı tədbirlərin burada çox görülməməsi bir az da bununla əlaqədar idi.  Demək olar ki, hər isveçlinin bir neçə addımlığında ya meşə, ya təbii su hövzəsi, ya buzlaqlı dağ, bunlardan heç birisi olmasa belə,  bir park mütləq vardır. Sərhədləri daxilində 200 mindən çox adası olan İsveç bu rəqəmlə dünya birincisidir. Vikinqlərin xələfləri sayılan xalqı isə uzunömürlülükdə sadəcə yaponlardan geri qalır. “Laqom” (qədərində) fəlsəfəsi isveçlilərə nə çoxa meyilli, nə aza qane olmadan tarazlı və stresdən uzaq həyat tərzi aşılayır. 1973-cü ildən bəri taxtda oturan indiki kral Karl XVI Qustav (Carl XVI Gustaf) yalnız Nobel mükafatlarının təqdimatı və daha bir neçə mədəni tədbirdə görünməsi, ailəsi ilə bərabər sakit həyat tərzi sürməsi isə “laqom”dan deyil, bu dövlətin konstitusiyasından irəli gələn bir du-

rumdur. Burada onu qeyd etmək yerinə düşər ki, hazırkı İsveç kral ailəsi Bernadotte sülaləsinə aiddir. Bu sülalənin qurucusu Jean-Baptiste Bernadotte fransız əsilli bir hərbçi idi və 1810-cu ildə İsveç taxtına çıxaraq XIV Karl Johan adını aldı. O vaxtdan bəri Bernadotte sülaləsi İsveçdə hakimiyyətdədir. Karl XVI Qustavın Almaniyada ikən boş yeri qalmamış restoranın sahibi tərəfindən qapıdan qaytarılması bütün dünyada xəbər olmuşdu; xanımı etnik mənsubiyyətinə görə alman olan İsveç kralının Almaniyada üzdən tanınmamağı mətbuata onu dilinə dolamaq üçün bir girəvə vermişdi. Kralın ailəsindən bircə böyük qızı – kraliça olacaq şahzadə Viktoriya ictimai həyatda çox fəaldır və buna görə də xalq tərəfindən tanınıb sevilir. Bu Skandinaviya ölkəsində son 300 ildə ilk dəfə, bütün tarixi boyunca isə dördüncü dəfə qadın monarxın taxta çıxacağı gün maraqla gözlənilir. Gələcək monarxın özünə həyat yoldaşı olaraq keçmiş fitnes məşqçisini seçməsinə isə şimallılar müzakirə mövzusu kimi baxmır – onlara görə, şəxsi işidir, taxta çıxmağın şərti könülə qıfıl vurmaq olmamalıdır. “Svenlərin krallığı”[1] bir neçə müharibədən məğlub çıxsa da, orta əsrlərdən bəri həmişə müstəqil olmuş tək dövlətdir. Əgər Rusiya Ukraynaya təcavüz etməsəydi, NATO-ya daxil olmaq İsveç iqtidarının ağlına belə gəlməzdi. Dünya siyasətində heç bir iddiası olmayan bu şimal ölkəsi şanlı keçmiş tərənnüm etmək yerinə insanlarının yüksək

[1] Yerlilər öz ölkələrini “Sverige” adlandırırlar. Bu da hərfi tərcümədə “svenlərin krallığı” deməkdir. Sven tayfaları – isveçlilərin etnogenezində rol oynamış iki böyük tayfadan biri olub.

rifah səviyyəsi, sosial ədalətin bərqərar olunduğu cəmiyyət, təmiz ekologiya kimi mövzularda indiki və gələcək zamanda danışmağı özünə yol seçib. Konstitusiyalı monarxiya kimi idarə olunan, əsas siyasi fiqurun Baş nazir olduğu, parlamentarizmin kök saldığı İsveçin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsasını təsbit edən ali qanunu 4 fundamental normativ aktdan ibarətdir. Bunlardan ən vacib olan "Hökumətin idarəetmə forması haqqındakı akt" İsveçin dövlət quruluşunu, hakimiyyət orqanlarını, idarəetmə formasını müəyyənləşdirib vətəndaşların da hüquq və azadlıqlarının qorunmasını təmin edir. "Vərəsəlik haqqında normativ akt" İsveçdə kimin kral və kraliça ola biləcəyi ilə bağlı meyarları müəyyən edir. Kral İsveçin dövlət başçısıdır, amma siyasi gücü yoxdur. O, sadəcə təmsilçi vəzifəsini daşıyır. "Mətbuat azadlığı haqqında akt" vətəndaşlara hökumət nəzarəti və dövlət idarələrinin xüsusi icazəsi olmadan, eləcə də heç bir senzura tətbiq edilmədən kitab, qəzet və digər növ çap məhsulları nəşr etmək və etdirmək hüququ verir. Həmçinin bütün vətəndaşlar hakimiyyət orqanlarının və məhkəmələrin çıxartdığı sənədlərlə tanış ola bilərlər. "İfadə azadlığı haqqındakı normativ akt" vətəndaşların radio və televiziya vasitəsilə, həmçinin internetdə mətnlər, şəkillər yayımlamaq, film çəkmək və bölüşmək hüquqlarını qoruyur. Beləcə, sözügedən əvvəlki qanunla birlikdə isveçlilərin fikir və ifadə azadlıqlarının qorunması təmin olunub. Vətəndaşların qanunvericiliklə qorunan hüquq və azadlıqlarından birini xüsusilə qeyd

etmək istəyirəm, çünki bu romanın süjet xətti ondan istifadə və bəzən də sui-istifadə ilə inkişaf edir. Nədir o? Bütün vətəndaşların "ifadə azadlığı", "məlumat azadlığı", "nümayiş, azad toplaşmaq və etiraz azadlığı", "dini etiqad azadlığı" ilə bərabər "İCTİMAİ TƏŞKİLAT QURMAQ VƏ HƏR HANSI İCTİMAİ TƏŞKİLATDA TƏMSİL OLUNMAQ" hüququ var.

# *Proloq*

Bir gün əvvəl Stockholmda Türkiyə səfirliyinin önündə aksiya keçirərək müsəlmanların müqəddəs kitabı olan "Qurani-Kərim"i yandıran iraqlı mühacir Rajab Əl Fathinin parça-parça edilmiş cəsədi Norrköpinglə Kalmarın arasında E 22 Avropa magistralına yaxın bir meşədə polislər tərəfindən aşkar edildi. Polislər hadisə yerinə baxışı yekunlaşdırdıqdan sonra yanmış maşının qalıntılarını, üstündə qan axıdılmış böyük ağac kötüyünü, əlcəkləri, baltanı, siqaret kötüklərini və Rajab Əl Fathinin parça-parça edilmiş cəsədini ayrı-ayrı torbalara yığıb ambulans və polis maşınlarına yüklədilər.